***Mətni dinləyin və 1 – 4 saylı tapşırıqları cavablandırın.***

**1.** Mətnin əsas ideyasını müəyyən edin.
A) Vaxtı itirsən hədər, görərsən böyük zərər.
B) Yersiz zarafatlar kədərli sonluqla bitər.
C) Ağıllı məsləhətə qulaq asmaq heç vaxt gec deyil.
D) Qisas almaq istəyən özü də ziyan görər.
E) Dilini saxlayan salamat olar.

**2.** Mətnə əsasən doğru cavabları seçin.

| Mətndə tənqid olunur: | Mətndə təbliğ edilir: |
|---|---|
| 1. intiqam almaq | 4. ədavət aparmaq |
| 2. acgözlük etmək | 5. sülh, əmin-amanlıq |
| 3. mərhəmət göstərmək | 6. humanistlik |

A) 1, 2, 3 B) 1, 5, 6 C) 3, 4, 5
D) 4, 5, 6 E) 2, 3, 4

**3.** Hansı suala mətndə cavab ***yoxdur***?
A) Tələbə çaydanı nə üçün sındırdı?
B) Tələbə insan münasibətləri haqqında nə düşünürdü?
C) Ustad tələbələrinə hansı məsləhəti verirdi?
D) Ustad tələbəyə nə təklif etdi?
E) Tələbənin kim ilə ədavəti var idi?

***4 saylı tapşırığı "Cavab vərəqi"ndə cavablandırın.***

**4.** Mətnin sonunda ustad tələbəsinə *"Yaxşısı budur, ümumiyyətlə, çatların əmələ gəlməsinə imkan verməyəsən"* cümləsi ilə nə demək istəyirdi? Fikrinizi ən azı 2 cümlə ilə yazın.

**5.** Mürəkkəb cümlə şəklində olan atalar sözünü seçin.
A) Doğru büdrəyər, amma yıxılmaz.
B) Ayıdan qorxan meşəyə getməz.
C) Yalan ayaq tutar, yeriməz.
D) Bağban tələsər, armud vaxtında yetişər.
E) Qələm yazanı qılınc poza bilməz.

**6.** Əsas nitq hissəsinə görə ardıcıllığı tamamlayın.
1. mənlik
2. burulğan
3. qazanc
4. vətənpərvərlik
5. ...
A) bolluq
B) insanpərvər
C) qaçağan
D) gülünc
E) zarafatcıl

**7.** Yazılışı ilə tələffüzü arasında fərq olan sözləri müəyyən edin.
A) lampa, qüllə, atlas
B) fikirli, müdir, həkim
C) beşinci, həssas, işıq
D) doqquz, müdafiə, dərd
E) xeyli, dəmir, tüfəng

**8.** Verilmiş cümlədə üzərində rəqəm yazılmış hansı sözlər suala cavab ***vermir***?

*Qonaqlar*(1), *deyəsən*(2), *burada*(3) *daha*(4) *yaxşı*(5) *dincəliblər*(6).

A) 2, 4, 5 B) 1, 3, 6 C) 2, 4 D) 1, 2 E) 3, 5

**9.** Biri düzəltmə sözdür:
A) bozarmaq
B) bacarmaq
C) aparmaq
D) qurtarmaq
E) qabarmaq

**10.** Cümlələri tamamlamaq üçün uyğun sözləri müəyyən edin.
1. *Üzündəki iri ... onu daha gözəl göstərirdi.*
2. *Onda ... qalmasa da, son zərbə ilə topu qapıdan keçirdi.*
3. *Bibi, bu gecə bizdə ... .*
A) çal, xal, gəl
B) xal, qol, ol
C) hal, xal, ol
D) xal, hal, qal
E) nar, yol, yat

**11.** Hansı cümlədə mübtəda ilə xəbər arasında uzlaşma pozulmuşdur?
A) Yerli əhali bizi mehriban qarşıladıq.
B) Biz də yarışda onun qalib gələcəyinə inanırıq.
C) Ayxan bu il yay tətilini harada keçirəcək?
D) Yağış dünən ara vermədən yağırdı.
E) Mən evə çatanda onlar yenicə getmişdilər.

**12.** Biri həmcins üzvlü cümlədir:
A) Qılınc yarası sağalar, söz yarası sağalmaz.
B) Yay aylarında burada böyük çadırlar qurulur.
C) Dəniz, qum və günəş yay tətilini unudulmaz edir.
D) Onun saçları qar kimi ağarmışdı.
E) Güclü külək əsir, toz-torpaq gözə dolur.

**13.** Sözlərin düzgün ardıcıllığını müəyyən edərək cümlə qurun.
1. asılır
2. hər
3. bayraqlar
4. günlərində
5. yerdən
6. bayram
A) 3, 1, 5, 2, 6, 4
B) 6, 4, 2, 3, 5, 1
C) 6, 4, 2, 5, 3, 1
D) 3, 2, 5, 1, 6, 4
E) 2, 5, 1, 3, 6, 4

**14.** Cümlələrin birində şəxs əvəzliyi işlədilmişdir.
A) Vətəni qorumaq hər kəsin müqəddəs borcudur.
B) Üçrəngli bayrağımız ucaldılanda biz də stadionda idik.
C) Nərminə bu hadisə haqqında heç nə söyləmədi, çıxıb getdi.
D) Heç kəsə fikir vermə, işinlə məşğul ol.
E) Kimsə qapını açdı, hamı içəri keçdi.

Mən, sən, o, biz, siz, onlar

4. Tələbə çaydanı sındırsada onnan asılı olmadı. Əksinə sevdiyi insanların ayaqlarına bu çatlarla ziyan vura bilərdi. Əgər nə zaman kinli olsa bu yırtıkları yadına salıb və birdə bu çatların əmələ gəlməsinə imkan verməz.

***15 – 22 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**İtirilmiş pul kisəsi**

Bir gün varlı, ancaq varlı olduğu qədər də xəsis olan bir tacir ağzınacan *dolu*[1] pul kisəsini yolda itirir. Bütün gecəni yata bilməyən tacir səhər tezdən durub şəhər hakiminin yanına gəlir və ondan xahiş edir:

– Köməksizlərin köməyi, məni bu bəladan qurtar. Bütün məmləkətə elan et ki, hamı pul kisəmi axtarsın. Tapana onun içindəki dörd yüz qızılın qırxını hədiyyə edəcəyəm.

Hakim belə də etdi. (1) Üç gündən sonra kasıb bir qadın hakimin yanına gəlib içində dörd yüz qızıl olan pul kisəsini ona verdi. Hakim əmr etdi ki, taciri çağırsınlar. Tacir gəldi və pul kisəsini görüb çox sevindi. (2) Sonra kisənin içindəki pulları *saymağa*[2] başladı və birdən qışqırdı:

– Pulların hamısı yerində deyil, bu dörd yüz qızıldan savayı, orada dörd dənə də Venesiya qızılı vardı.

(3) Hakim anladı ki, *gözü doymayan*[3] tacir verdiyi vədi yerinə yetirmək istəmir. O dedi:

– Deməli, bu pul kisəsi sənin deyil, çünki bu günlərdə mən də pul kisəmi itirmişdim. Orada yalnız dörd yüz qızıl vardı, bir dənə də olsun Venesiya qızılı yox idi. Bu pul kisəsi mənimdir.

Daha sonra hakim qadına üz tutdu:

– (4) Dövləti çox olan yox, səxavətli olan yaxşı insandır. Sən dürüstlüyünlə, *təmiz*[4] qəlbinlə, *qızıl*[5] xasiyyətinlə çoxlarına nümunə oldun. (5) Mən də bunu **bəxşiş** olaraq elə sənin özünə qaytarıram.

**15.** Mətnin ideyasına uyğun atalar sözlərini müəyyən edin.

1. Hirsli başda ağıl olmaz.
2. Çox istəyən azdan da olar.
3. Kasıblıq eyib deyil, oğurluq eyibdir.
4. Xəsis acgöz olar.
5. Xəsisə zəhər versən, pulsuzdur deyə içər.

A) 1, 3, 5
B) 3, 4, 5
C) 3, 5
D) 1, 2, 4
E) 2, 4

**16.** Mətndə altından xətt çəkilmiş ifadəni hansı sözlər əvəz edə bilər?

1. başısoyuq
2. genişürəkli
3. daşqəlbli
4. əliaçıq

A) 1, 3  B) 1, 2  C) 2, 4  D) 2, 3  E) 3, 4

**17.** Mətndə tünd-qara rəngdə verilmiş "bəxşiş" sözünün kontekstə görə mənasını müəyyən edin.

A) Pulla ödənilən cəza növü; cərimə
B) Qaytarılmaq şərti ilə birinə verilən pul; borc
C) Ehtiyacı olan biri üçün toplanılan pul; ianə
D) İşləməklə, çalışmaqla əldə edilən pul; qazanc
E) Bağışlanan pul və ya qiymətli hədiyyə; mükafat

**18.** Üzərində rəqəm yazılmış hansı ifadələr məcazi mənadadır?

A) 2, 3, 4
B) 2, 3, 5
C) 1, 4, 5
D) 3, 4, 5
E) 1, 2, 3

**19.** Mətnin məzmununa uyğun fikirləri müəyyən edin.

1. Qadının gözütox olması hakim tərəfindən mükafatlandırılır.
2. Tacirin qadına böhtan atmaqda məqsədi qadını sınamaq idi.
3. Hakimin ədalətli qərarı tacirin xoşuna gəlir.
4. Hakim itmiş pul kisəsi haqqında elan verir.
5. Hakim vədinə əməl etməyən tacirə yaxşı dərs verir.

A) 2, 3, 4
B) 1, 3, 5
C) 2, 5
D) 2, 3
E) 1, 4, 5

**20.** Mətnin tərkib hissələrinə görə uyğunluğu müəyyən edin.

1. Hakimin ədalətli qərarı
2. Tacirin pulunu itirməsi
3. Tacirin vədinə əməl etməməsi

a. giriş
b. əsas hissə
c. nəticə

A) 1 – b; 2 – c; 3 – a
B) 1 – c; 2 – b; 3 – a
C) 1 – c; 2 – a; 3 – b
D) 1 – a; 2 – c; 3 – b
E) 1 – b; 2 – a; 3 – c

**21.** "*Tacirin sözləri kasıb qadını təşvişə salsa da, hakimi heç də təəccübləndirmədi*" cümləsi mətndəki hansı rəqəmin yerinə yazılsa, fikirlər arasında əlaqə *pozulmaz*?

A) 5  B) 1  C) 3  D) 2  E) 4

***22 saylı tapşırığı "Cavab vərəqi"ndə cavablandırın.***

**22.** Mətnə əsasən tacirə xas olan ən azı iki xüsusiyyət yazmaqla klasteri tamamlayın.

ədalətli, varlı xəsis
3. dövləti çox olan
4. gözü doymayan tacir verdiyi vədi yerinə yetirmə istəmir

*23 – 30 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.*

**Şəki xan sarayı**

Şəki xan sarayı XVIII əsrə aid nadir memarlıq abidəsidir. Şəhərin ən yüksək hissəsində yerləşən sarayı Hüseyn xan tikdirmişdir. Sarayı dörd bir tərəfdən qala divarları əhatə edir. Bura uzun müddət xanların yay **iqamətgahı** olmuşdur. Sarayın altı otağı, dörd dəhlizi və iki güzgülü eyvanı var. Binanın inşasında çay daşlarından və çiy kərpicdən istifadə olunmuşdur. Sarayın birinci mərtəbəsi qonaqların qəbulu üçün ayrılmışdır. İkinci mərtəbədə isə xan və onun ailə üzvləri qalırmışlar.

Saraydakı otaqların hər biri məzmunca bir-birindən fərqlənən rəsmlərlə bəzədilmişdir. Xanın otağında döyüş səhnələrini əks etdirən rəsmlər yer alır. İstirahət otağındakı rəsmlər isə, əsasən, ov, şikar məzmunludur. Qadınlara məxsus otaqların divarları gül-çiçəklə, bülbüllərlə, əfsanəvi quş və heyvan şəkilləri ilə bəzədilmişdir. Maraqlıdır ki, sarayın yalnız divarları deyil, tavanı da rəngbərəng naxışlarla örtülüdür. Sarayı bəzəyən rəsmlər müxtəlif rəssamlar tərəfindən çəkilmişdir. Onların adları sarayın bir neçə yerində divarlara <u>həkk olunmuşdur</u>.

Sarayın pəncərə və qapıları "şəbəkə texnikası" adlanan xüsusi üsulla hazırlanıb. Dünyada **analoqu** olmayan şəbəkələr rəngli şüşə və ağac parçalarının birləşdirilməsi ilə qurulmuşdur. Maraqlıdır ki, bu şəbəkələrin hazırlanmasında, ümumiyyətlə, binanın tikintisində yapışqan və mismardan qətiyyən istifadə edilməmişdir.

Şəki xan sarayı orijinal memarlıq üslubu ilə görənləri heyrətləndirir. Şəkidə 1957-ci ildə qonaq olan türk şairi Nazim Hikmət sarayı gəzib gördən sonra demişdir: "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi."

Azərbaycan memarlığının incisi hesab olunan saray 2019-cu ildə Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

**23.** Mətnin birinci abzasında işlənmiş *"iqamətgah"* sözünün mənasını müəyyən edin.
A) İbadət edilən yer, məbəd.
B) Dövlət başçısının və ya yüksək vəzifə sahibi olan şəxslərin sakin olduqları yer.
C) Taxıl, ərzaq və sair məhsulları saxlamaq üçün xüsusi tikilmiş yer, bina.
D) Düşmənə müqavimət göstərmək üçün tikilən müdafiə qalası.
E) Qədim dövrdə döyüş oyunları üçün istifadə edilən əyləncə meydanı.

**24.** Mətni yazmaqda müəllifin əsas məqsədi nədir?
A) Sarayın özünəməxsus memarlıq üslubu ilə bağlı ətraflı məlumat vermək
B) Sarayın dünya əhəmiyyətli abidələr sırasına daxil edildiyi barədə xəbər vermək
C) Saraya gələn turistlərin saray haqqında fikirlərini çatdırmaq
D) Sarayın memarının kimliyi ilə bağlı fərziyyələr irəli sürmək
E) Sarayın tikilmə tarixi ilə bağlı mübahisələri aydınlaşdırmaq

**25.** Hansı məlumat mətnə əlavə edilə *bilməz*?
A) Şəki xan sarayı hazırda muzey kimi fəaliyyət göstərir.
B) Şəki xan sarayının divarlarındakı rəsmlər bu günədək yaxşı vəziyyətdə qalmışdır.
C) Şəki xan sarayının müxtəlif yerlərində Qəmbər, Əliqulu, Qurbanəli, Mirzə Cəfər adlı sənətkarların adları yazılmışdır.
D) Şəki xan sarayının ərazisi 300 kvadrat metrdir.
E) Şəki xan sarayına 25 may tarixinə planlaşdırılan ekskursiya təxirə salındı.

**26.** Mətndə tünd-qara rəngdə verilmiş "analoq" ifadəsini əvəz edə bilən sözləri müəyyən edin.
A) saxta, süni
B) bənzər, oxşar
C) tək, yeganə
D) qədim, köhnə
E) yarımçıq, natamam

**27.** Mətnin məzmunundan belə nəticəyə gəlmək olar.
A) Türk şairi Nazim Hikmət bu saray haqqında şeir yazmışdır.
B) Saraydakı divar rəsmlərinin müəllifləri məlumdur.
C) Şəki xanları qış fəslində bu sarayda qalırdılar.
D) 300 il əvvəl mismar və yapışqan hələ icad edilməmişdir.
E) Sarayın memarı Hüseyn xan olub.

**28.** Mətndə hansı suala cavab yoxdur?
A) Binanın tikintisində hansı materialdan istifadə olunmuşdur?
B) Abidə hansı dövrə aiddir?
C) Sarayın divarlarında nə təsvir olunmuşdur?
D) Saray neçə mərtəbədən ibarətdir?
E) Sarayın memarı kim olmuşdur?

**29.** Mətndə altından xətt çəkilmiş *"həkk olunmaq"* ifadəsi hansı cümlədə mətndəki mənasında ***işlədilməyib***?
A) 2020-ci il 10 noyabr tarixi Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub.
B) Qala divarına həkk olunmuş naxışlar bu gün də görənləri heyran edir.
C) Qədim palıd ağacının gövdəsinə iki ad həkk olunmuşdur.
D) Qaya üzərinə bu sözlər həkk olunmuşdur: "Qorxma, biz buradan keçmişik və sağ qalmışıq."
E) Onun adı çox səliqə ilə taxta lövhəyə həkk olunmuşdur.

*30 saylı tapşırığı "Cavab vərəqi"ndə cavablandırın.*

**30.** Mətndəki məlumatlara əsasən aşağıdakı fikri təsdiq edən ən azı iki cümlə yazın.

| |
|---|
| *"Xan sarayı bizi əmin edir ki, hələ XVIII əsrdə Şəkidə incəsənət inkişaf etmişdir..." (Nikolay Tixonov, 1947)* |

Saraydakı otaqların hər biri məzmunca bir-birindən fərqlənən rəsmlərlə bəzədilmişdir.
1.

***Mətni dinləyin və 1 – 4 saylı tapşırıqları cavablandırın.***

**1.** Mətndən çıxan əsas fikrə uyğundur:

A) Doğma adamın vurduğu kiçik bir zərbə qılınc yarasından daha ağrılı olur.
B) Əlindən iş gəlməyənin başına iş gələr.
C) Özü qazanmayan var-dövlətin qədrini bilməz.
D) Yaltağın sözü zəhər qatılmış bal kimidir. (Latın atalar sözü)
E) Böyük vədlər verməzdən öncə böyük işlər görmək lazımdır. (Pifaqor)

**2.** Mətnə əsasən hadisələrin ardıcıllığını müəyyən edin.

1. Şairin həbs edilməsi
2. Zülmə qarşı tənqidi şeirlər
3. Şahın təəccüblənməsi
4. Şagirdin müəllliminə kəsək atması

A) 1, 4, 3, 2  B) 1, 4, 2, 3  C) 2, 1, 3, 4
D) 2, 1, 4, 3  E) 2, 4, 1, 3

**3.** Mətnə əsasən cədvəldəki uyğunluğu müəyyən edin.

| Səbəb | Nəticə |
|---|---|
| Şair şeirlərində ölkədəki ədalətsizliyi, şahın və əyanların zülmünü tənqid edir. | 1. Şahın qəzəbinə tuş gəlir.<br>2. İnsanlar onu daşqalaq edirlər.<br>3. Şagirdi onu müdafiə edir.<br>4. Camaat şairi təmtəraqla qarşılayır. |

A) 1, 3  B) 2, 3  C) 1, 2  D) 2, 4  E) 1, 4

***4 saylı tapşırığı "Cavab vərəqi"ndə cavablandırın.***

**4.** Mətnə əsasən cədvəli tamamlayın.

**5.** Hadisələri ardıcıl şəkildə baş vermiş tabesiz mürəkkəb cümləni müəyyən edin.

A) İşıqlar gözlənilmədən söndü, ona görə paltarları ütüləyə bilmədim.
B) Pərdə açıldı və gözlədiyimiz tamaşa başlandı.
C) İşdən yorğun gəlsəm də, yatmaq istəmirdim.
D) Həm N.Gəncəvi, həm də M.Füzuli "Leyli və Məcnun" adlı poema yazmışdırlar.
E) Uşaq bütün sualları cavablandırdı, vərəqi təhvil verdi.

**6.** *Qoy* sözü hansı cümlədə ədat kimi ***işlənməmişdir***?

A) Mane olma, qoy dərslərini oxusun.
B) Qoy, ay ana, hər şey sən istədiyin kimi olsun.
C) Qoy mən yenə söhbət açım ilk baharımdan.
D) Kitabları yerinə qoy, qızım, sonra bura gəl.
E) Keçmə namərd körpüsündən, qoy aparsın sel səni.

**7.** Hansı birləşmədəki sözlərin arasına "*parlaq*" sözünü əlavə etmək ***olmaz***?

A) kəmərin muncuqları  B) günəş şüaları
C) lampanın işığı  D) divarın boyası
E) parçanın sapları

**8.** Hansı sözdə nöqtələrin yerinə "*ə*" hərfi yazılmalıdır?

A) həş..rat  B) ş..hzadə  C) fəd..kar
D) təv..zökar  E) xəc..lət

**9.** Hansı cümlədə "*o*" əvəzliyindən sonra vergül işarəsi qoyulmalıdır?

A) O kitab oxumağı çox sevir.
B) O da sənin kimi qoçaqdır.
C) Pəncərədən gördüm ki, o gəlir.
D) O gah gülür, gah da ağlayırdı.
E) O uşağı mən də görmüşəm.

**10.** Yalnız isimlərdən ibarət olan cümləni müəyyən edin.

A) Uşaq həkimi Dilarə xanım mənim xalamdır.
B) Məktəblilər ağacları və qızılgül kollarını suladılar.
C) Şah İsmayıl Xətainin anası Aləmşah bəyim müdrik qadın idi.
D) Bakı şəhəri Azərbaycanın paytaxtıdır.
E) Bənövşənin ətri otağa yayılmışdı.

**11.** Sadə cümləni müəyyən edin.

A) Uzaqdan tanıdım: gələn Polad idi.
B) Nənəm hər il səməni cücərdir, hamımıza pay verir.
C) Onun atası həkim idi, anası isə mühəndis olub.
D) Futbol oynamağa getsək, səni də çağırarıq.
E) Gün çıxmışdı, hava isə hələ də soyuq idi.

**12.** Xəbəri feillə ifadə edilmiş cümləni müəyyən edin.

A) Cənnət anaların ayağı altındadır.
B) Dərd insanı qocaldır.
C) Ehtiyat igidin yaraşığıdır.
D) Bilikli olmaq ən böyük qazancdır.
E) Bacarıq ağılın nişanəsidir.

**13.** Hansı cümlə frazeoloji birləşmə ilə başlayır?

A) Şirin sözlərlə uşağın könlünü aldı.
B) Burnunun ucu soyuqdan göynəyirdi.
C) Yola düşən daş gediş-gəlişi çətinləşdirmişdi.
D) Uşaq ağzını açanda təzəcə çıxmış dişi göründü.
E) Hirsi başına vurduğundan heç kimi eşitmirdi.

**14.** "*Əsərin geniş təhlili*" ifadəsində altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək olar?

A) böyük  B) enli  C) həcmli  D) ətraflı  E) iri

4) Şah Namərd ədalətsiz
Şair müdrik

t.me/Birlik_team1

*15 – 22 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.*

**Əhməd Hüseyn**

Əhməd Hüseyn adlı dünyagörmüş bir şəxs var idi. Onun insanların fikirlərini *oxuması*[1], onların gizli sirlərindən agah olması barədə şayiələr **dolaşırdı**. Bu xəbər sultana da çatır. O düşünür ki, belə bacarıqlı insanlar sarayda olmalıdırlar. O, Əhməd Hüseynin bu bacarığını sınamaq, şayiələrin həqiqətə uyğun olub-olmadığını öyrənmək istəyir və onu saraya dəvət edir. Ancaq Əhməd Hüseyn sultanın xahişini *yerə salır*[2], saraya getməkdən imtina edir.

Bir dəfə sultan bəhanə ilə Əhməd Hüseyni saraya gətirdir. Sarayın bağçasında gəzən bir kişini göstərərək soruşur:

– Əhməd Hüseyn, səncə, o adamın peşəsi nədir?

– Bənnadır, ustadır.

– Bəs adı nədir?

– Əhməd.

– Səncə, bu gün o nə yeyib?

– Təzəcə şirin bir şey yeyib.

Sultan təəccüblənir və deyir:

– Ey tayı-bərabəri olmayan fərasətli insan, sən bacarığını gizlətməyə çalışsan da, gec-tez o üzə çıxdı. Əgər mən sənin bu istedadını açıb xalqa *söyləsəm*[3], insanlar sənin müqəddəsliyinə inanarlar. Axı niyə özünü bu qədər sadə bir insan kimi *aparırsan*[4]?

Əhməd Hüseyn dərhal cavab verdi:

– Sultanım, mən, doğrudan da, qeyri-adi bir iş görmürəm.

– Axı elə indicə öz məharətini göstərdin!

– Nəyi göstərdim ki?

– Tanımadığın şəxs haqqında bütün sualların dəqiq cavabını tapdın. Bu, qeyri-adi bacarıq deyilmi?

– Xeyr, dəyərli sultanım, burada çətin heç nə yoxdur. Siz məni adımla çağıranda o adam da *dönüb*[5] sizə baxdı və onun adaşım olduğunu anladım. Onun usta olması əllərinin qabarından, döyənəyindən bəlli idi. Başına yığışan arılardan isə təzəcə şirniyyat yediyini anlamaq çox asan idi. ...

**15.** Üzərində rəqəm yazılmış hansı sözlər yerinə görə məcazi mənada işlənmişdir?
A) 4, 5  B) 1, 4, 5  C) 1, 2, 4
D) 3, 5  E) 2, 3, 5

**16.** Mətndə altından xətt çəkilmiş sözün düzgün izahını müəyyən edin.
A) Eyni həyat tərzi sürən, fikirləri üst-üstə düşən şəxslər.
B) Eyni vaxtda, tarixdə doğulan insanlar.
C) Adları məşhur olan şəxslər.
D) Üz cizgilərinə görə bir-birinə oxşayan adamlar.
E) Adları eyni olan adamlar.

**17.** Əhməd Hüseyn hansı fikirlə nitqini tamamlaya bilər?
A) Güclü müşahidə qabiliyyəti və diqqət insanların həyatını, onların fikirlərini öyrənməyə imkan verir.
B) Hər kəsə görünüşünə, geyiminə görə qiymət verilməlidir.
C) İnsan ən çox səhvlərindən öyrənər.
D) Şirin dil ilanı yuvasından çıxarar.
E) Vaxtında görülməyən iş həmişə yarımçıq qalar.

**18.** Hansı fikir mətnin məzmununa uyğun *deyil*?
A) Əhməd Hüseyn təkəbbürlü, lovğa deyildi.
B) Əhməd Hüseyn sultanın verdiyi hər üç sualı doğru cavablandırdı.
C) Əhməd Hüseyn qeyri-adi bacarığa sahib olduğunu sübut etdi.
D) Əhməd Hüseyn bənna Əhmədi ilk dəfə görürdü.
E) Usta Əhməd zəhmətkeş idi.

**19.** Mətnin giriş hissəsində işlənmiş "dolaşmaq" sözü kontekstə görə hansı mənada işlənmişdir?
A) dolanmaq, sarılmaq
B) yayılmaq, dildən-dilə düşmək
C) çaşmaq, səhv etmək
D) sataşmaq, ilişmək
E) dolaşıq düşmək, qarışmaq

**20.** Mətnə əsasən uyğunluğu müəyyən edin.
1. Giriş
2. Əsas hissə
3. Nəticə

a. Sultanın Əhməd Hüseyni saraya dəvət etməsi
b. Sultanın Əhməd Hüseyni sınağa çəkməsi
c. Əhməd Hüseyn haqqında şayiələr
d. Əhməd Hüseynin şayiələrə aydınlıq gətirməsi
e. Əhməd Hüseynin saraya gəlməsi
A) 1 – a, c; 2 – d, e; 3 – b  B) 1 – b, c; 2 – d, e; 3 – a
C) 1 – a, c; 2 – b, e; 3 – d  D) 1 – e; 2 – a, b; 3 – c, d
E) 1 – c; 2 – a, b; 3 – d, e

**21.** Eyler-Venn diaqramındakı doğru fikirləri müəyyən edin.




A) 4, 5  B) 2, 4  C) 1, 2, 5  D) 3, 5  E) 1, 3, 4

*22 saylı tapşırığı "Cavab vərəqi"ndə cavablandırın.*

**22.** Sultanın Əhməd Hüseyni saraya dəvət etməkdə məqsədi nə idi? Ən azı iki fikir bildirin.

***23 – 30 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Möhtəşəm Moeraki daşları**

Yeni Zelandiyanın **unikal** təbiət möcüzələrindən biri Moeraki daşlarıdır. Bu daşlar turistlərin, fotoqrafların və tədqiqatçıların diqqət mərkəzindədir. Belə ki, gün batarkən onların çox qəribə və heyrətamiz görünüşü olur. Məhz bu daşlar kiçik kənd olan Maorini məşhurlaşdırıb. İndi dünyanın müxtəlif yerlərindən insanlar bu daşlara görə Maoriyə gəlir, onları seyr edir, toxunur, şəklini çəkirlər.

Bu qeyri-adi dairəvi daşlar ölkənin cənub sahillərində olan Koekohe çimərliyində yerləşir. Bunlar sanki insan əli ilə yaradılıb. Hər biri mükəmməl dairəvi formaya malikdir. Daşların diametri 0.5 metrdən 3 metrədək dəyişir, çəkisi isə 10 tona qədər olur. Daşların səthindəki tısbağa çanağını xatırladan çatlar və naxışlar onları daha da cəlbedici edir.

Alimlərin fikrincə, Moeraki daşları geoloji kürələrdir və milyon illər ərzində formalaşmışdır. Əvvəlcə daşların mərkəzində bərk nüvə əmələ gəlmiş, həmin nüvənin ətrafında suda həll olmuş minerallar çöküntü təbəqəsi yaratmışdır. Zaman keçdikcə həmin çöküntü təbəqəsi kristallaşmış və cilalanaraq irihəcmli, dairəvi şəkil almışdır. Bu daşların yaşı təxminən, 60 milyon il hesab edilir.

Moeraki daşları təkcə geoloji deyil, həm də mədəni əhəmiyyət daşıyır. Yerli xalqın əfsanələrinə görə, bu daşlar vaxtilə dənizin dərinliyində itmiş qədim Arateru qayığının qalıqlarıdır. Guya Arateru qayığı yoxa çıxanda həmin vaxt balıq tutmaq üçün olan səbətlər, digər əşyalar daşlaşıb. Bəzən isə onun əfsanəvi qayıqdan yerə tökülən kartof olduğuna inanırlar. Hətta bu daşların dinozavr yumurtası olduğunu söyləyənlər də var.

Bir sözlə, bu daşlarla bağlı yaranmış fərziyyələr, əfsanələr Yeni Zelandiya mədəniyyətində xüsusi yer tutur.

**23.** Hansı fikir Moeraki daşlarının mədəni əhəmiyyətini göstərir?
A) Əfsanələrdə xalqın qədim inanclarını yaşadır.
B) Unikal təbiət möcüzəsidir.
C) Elm adamlarının marağını cəlb etmişdir.
D) Digər ölkələrlə ticarət əlaqələri yaratmağa səbəb olmuşdur.
E) Geologiyanın tədqiqat predmetidir.

**24.** Mətndə daşların hansı xüsusiyyəti öz əksini *tapmayıb*?
A) rəngi B) diametri C) yaşı
D) çəkisi E) forması

**25.** Hansı cümlədə altından xətt çəkilmiş söz mətndə işlənmiş "unikal" sözünü əvəz edə bilər?
A) Şeyx Səfi xalçası sənət əsəri kimi nadir və təkrarsızdır.
B) Mahnı məşhurlaşmışdı, radioda təkrar-təkrar səslənirdi.
C) O hər kəsin qibtə etdiyi sevimli bir müəllim olmaq üçün çalışır.
D) Qabaqcıl mədəniyyət işçiləri Şuşaya yola düşdülər.
E) Musiqi mədəniyyətlər arasında körpü olan universal dildir.

**26.** Hansı cümlə mətnin üslubuna uyğundur?
A) Daş qəlbli insanları neylərdin, ilahi?! (M.Ə. Sabir)
B) Ay bala, Sənubər xanım niyə özündən bu qədər razıdır?
C) Daş kimi yatıb-qalmış köhnə xatirələr hardan oyanır.
D) Maddə 22. Hər bir uşağın təhsil almaq hüququ vardır.
E) Ağdam rayonunda Erkən orta əsrlərə aid daş heykəllər tapılmışdır.

**27.** Hansı sualın cavabı mətndə *yoxdur*?
A) Daşların ölçüsü necədir?
B) Hər il Maori kəndinə gələn turistlərin sayı nə qədərdir?
C) Daşların unikal dairəvi forma almasının səbəbi nədir?
D) Daşlarla bağlı hansı fərziyyələr vardır?
E) Moeraki daşları harada yerləşir?

**28.** Klasteri tamamlayan fikirləri müəyyən edin.

| | |
|---|---|
| Moeraki daşları | çimərlik ərazisində yerləşir. |
| | |
| | |

1. üzərində qeyri-adi naxışlar var.
2. heykəltaraşlar tərəfindən yaradılıb.
3. xalq əfsanələrində qədim daşlaşmış əşyaları təmsil edir.
4. avropalılar tərəfindən bura gətirilib.
5. Yeni Zelandiyanın dağlıq ərazisində yerləşir.

A) 2, 4 B) 3, 4 C) 1, 3 D) 2, 5 E) 1, 5

**29.** Mətnin giriş hissəsinə aid plan bəndlərini müəyyən edin.
1. Çöküntüdən yaranmış geoloji kürələr
2. Gün batarkən daşların heyrətamiz görünüşü
3. Arateru qayığının daşlaşmış qalıqları
4. Turistlərin diqqət mərkəzindəki kənd

A) 2, 3 B) 1, 4 C) 1, 2 D) 3, 4 E) 2, 4

***30 saylı tapşırığı "Cavab vərəqi"ndə cavablandırın.***

**30.** Səbəb-nəticə əlaqəsinə əsasən cədvəli tamamlayın.